# AĞDAMA GƏL

Yolun düşsə Qarabağa,
Gül-çiçəkli güllü bağa
Hörmətimiz var qonağa -
Görmək üçün Ağdama gəl!

Kəklik qonan qayaları,
Segah kimi laylaları,
Yaraşıqlı obaları,
Görmək üçün Ağdama gəl!

Koroğlunun oylağını,
Gözəl Şahbulaq dağını,
Şer, sənət ocağını -
Görmək üçün Ağdama gəl!

Gözəl nemətlər bitirən,
Qəlbə sevinclər gətirən,
Gülablı tək çağ yetirən -
Görmək üçün Ağdama gəl!

Kürdoğlunun gur səsini,
Səxavətin nəfəsini,
Bülbüllərin həvəsini -
Görmək üçün Ağdama gəl!

Ürək açan havasını,
Göy otların dəvasını,
Qoca qartal yuvasını -
Görmək üçün Ağdama gəl!

Yamacların mənzərəli
Yaşıl ağaclı, dərəli
Kəklikotulu, zirəli -
Görmək üçün Ağdama gəl!

Hər nə desən var dağında,
Ana yurdun qucağında,
Şakiri yar sorağında -
Görmək üçün Ağdama gəl!

**Şakir Qərbəndli**
**Ağdam rayonu Qərbənd kəndi**